# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2022-ci il üzrə fəaliyyətinə dair

# HESABAT

# Mündəricat


1. **Giriş**.....................................................................................................3
2. **Normativ hüquqi aktlar**..............................................................................3
3. **Tibbi statistik göstəricilər**..............................................................................4
4. **Maliyyə ayırmaları**.........................................................................................8
5. **İctimaiyyətlə əlaqələr**......................................................................................8
   5.1. Media ilə əməkdaşlıq..........................................................................................9
   5.2. Agentliyin saytının və sosial şəbəkələrdəki səhifələrinin əsas fəaliyyət göstəriciləri............................................................................................ 11
6. **Vətəndaş müraciətlərinə baxılması** ..........................................................12
7. **Beynəlxalq əməkdaşlıq** ...............................................................................14
   7.1. Anlaşma Memorandumları...........................................................................14
   7.2. Beynəlxalq layihələr və tədbirlər ilə əlaqədar fəaliyyət..........................................14
   7.3. İşgüzar səfərlər...........................................................................................16
8. **İnsan resursları üzrə görülmüş işlər** ..........................................................16
9. **Əlillik məsələləri, regionlarla iş sahəsində görülmüş işlər**...................................35
   9.1. Əlillik məsələləri...........................................................................................17
   9.2. Regionlarla iş.................................................................................................18
10. **İnformasiya texnologiyaları və qeydiyyat sistemi üzrə görülmüş işlər** ...............19
11. **Koronavirus pandemiyası ilə mübarizə** ........................................................20
    11.1. Tibbi statistik göstəricilər.................................................................................20
    11.2. Vaksinasiya işinin təşkili...................................................................................21
    11.3. Texniki dəstək.................................................................................................21
    11.4. İnformasiya texnologiyaları üzrə tədbirlər............................................................21
    11.5. Maarifləndirmə üzrə tədbirlər .........................................................................21
    11.6. Beynəlxalq əməkdaşlıq.......................................................................................22

## 1. Giriş

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 765 nömrəli Fərmanına əsasən fəaliyyətə başlamış, 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanı ilə onun əsasında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" (bundan sonra – Agentlik) publik hüquqi şəxsi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli və 2018-ci il 16 fevral tarixli 1830 nömrəli Fərmanlarına əsasən 2017-ci ildən 2019-cu ilədək Agentlik tərəfindən icbari tibbi sığorta (bundan sonra – İTS) pilot layihə şəklində Mingəçevir, Yevlax və Ağdaş rayonlarında həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 31 mart tarixli 979 nömrəli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 aprel tarixli 136 nömrəli Qərarına əsasən 2020-ci il ilin yanvar ayından Agentlik tərəfindən İTS Mingəçevir şəhərində, Qusar, Xaçmaz, Quba, Şabran, Siyəzən, Xızı, Qobustan, İsmayıllı, Ağsu, Şamaxı, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ucar, Zərdab, Kürdəmir, Yevlax və Ağdaş rayonlarında həyata keçirilmişdir. 2021-ci ilin yanvar ayından etibarən Gəncə, Naftalan və Şirvan şəhərlərində, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Samux, Göygöl, Goranboy, Xocalı, Beyləqan, Xocavənd, Ağcabədi, Laçın, Bərdə, Füzuli, Ağdam, Tərtər, Kəlbəcər, Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı, Cəlilabad, Neftçala, Biləsuvar, Cəbrayıl, Salyan, İmişli, Saatlı, Sabirabad və Hacıqabul rayonlarında, 2021-ci ilin aprel ayından etibarən isə İTS-nin tətbiqi Bakı, Sumqayıt, Xankəndi şəhərlərində, Abşeron, Qubadlı, Zəngilan və Şuşa rayonlarında həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanına əsasən Agentlik tərəfindən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs (bundan sonra – TƏBİB) yaradılmışdır və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələri (müəyyən istisnalarla) 2020-ci ilin yanvar ayından TƏBİB-in tabeliyinə verilmişdir.

Hazırki təqdim edilən hesabat Agentliyin 2022-ci il üzrə fəaliyyəti haqqındadır.

## 2. Normativ hüquqi aktlar

2022-ci ildə Agentliyin fəaliyyət istiqamətlərinə aid edilən təşəbbüs və uyğunlaşdırılma qaydasına 6 Qanun, 7 Fərman və 9 Nazirlər Kabinetinin Qərarı qəbul edilmişdir:

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 16-4.4-cü maddəsinə əsasən Qanununun 15-28.3-cü və 15-28.4-cü maddələrində bəhs edən sığortaolunan ilkin tibbi-sanitariya yardımına müraciət etmədən birbaşa ambulator-poliklinik, laborator, funksional-diaqnostik tibbi xidmətlərdən istifadə etdikdə o cümlədən İTS çərçivəsində tibbi xidmətlərdən istifadə etmək məqsədilə yönləndirildiyi tibbi ərazi bölməsindən kənar yerləşən dövlət tibb müəssisəsinə müraciət etdikdə müştərək maliyyələşmə məbləğinin ödəməsinin 2022-ci il yanvarın 1-dən qüvvəyə minməsi müəyyən edilmişdir. Həmin Qanuna 2022-ci il 4 mart tarixli 491-VIQD Qanunla edilmiş dəyişikliyə əsasən həmin müddət 1 il uzadılaraq bu (15-28.3-cü və 15-28.4-cü) maddələrin tətbiq edilməsi 2023-cü il yanvarın 1-dən nəzərdə tutulmuşdur. Həmçinin qeyd edilən Qanunla "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-11.8-ci maddəsi yeni redaksiyada verilərək bu Qanunun 15-10.1.7-ci maddəsində nəzərdə tutulan aksizli mallar üzrə sığortahaqqı həmin mallar vergi ödəyicisi tərəfindən istehsal edildikdə Vergi Məcəlləsinin 191.1-ci maddəsi ilə, idxal edildikdə isə Vergi Məcəlləsinin 191.3-cü maddəsi ilə müəyyən edilən vaxtda ödənilməsi öz əksini tapmışdır.

Eyni zamanda, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-5.2-ci maddəsinə 2022-ci il 29 noyabr tarixli 654-VIQD nömrəli Qanunla edilmiş dəyişikliyə əsasən sığortalıların vəzifələrinə əlavə olaraq Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növlərini fərdi qaydada (muzdlu işçi cəlb etmədən) “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz” almaqla, o cümlədən Vergi Məcəlləsinin 218.4.1-ci maddəsində nəzərdə tutulan fəaliyyət növlərini fərdi qaydada (muzdlu işçi cəlb etmədən) “Fərqlənmə nişanı” almaqla həyata keçirmək vəzifələri əlavə edilmişdir.

Bundan başqa, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-21.1-ci maddəsinə 2022-ci il 9 dekabr 685-VIQD nömrəli Qanunla edilmiş dəyişikliyə əsasən İTS fondunun büdcəsinin hər il üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunması nəzərdə tutulmuşdur və Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2022-ci il tarixli 1949 nömrəli Fərmanı ilə İTS fondunun 2023-cü ilin büdcəsi təsdiq edilmişdir.

Əlavə olaraq qeyd edirik ki, səhiyyə və tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 13 may 2022-ci il tarixli 1677 nömrəli Fərmanı ilə TƏBİB-in tabeliyində olan elmi-tədqiqat institutları və mərkəzləri 2023-cü il yanvarın 1-dən Səhiyyə Nazirliyinin tabeliyinə verilmişdir. Həmçinin bu Fərmanla TƏBİB müstəqil publik hüquqi şəxs olmuş və TƏBİB-in fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün Müşahidə Şurası yaradılmışdır. Müşahidə Şurasının sədri Agentliyin İdarə Heyətinin sədri olmaqla, Azərbaycan Respublikası səhiyyə nazirinin müavinindən, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinindən, Agentliyin İdarə Heyəti sədrinin müavinindən və Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədrindən ibarət tərkibdə qurulmuşdur.

## 3. Tibbi statistik göstəricilər

İTS-nin tətbiq olunduğu tibb müəssisələri üzrə 2022-ci il ərzində **33%-i** (**1 503 812**) uşaq (0-17 yaş) olmaqla **4 557 008** vətəndaş tibbi xidmətlərdən faydalanmışdır. 2021-ci il ilə müqayisədə bu göstərici **12%** artmışdır. Buna dair məlumat aşağıdakı diaqramda əks olunmuşdur:




İTS-nin tətbiqi ilə tibb müəssisələrində icra olunan cərrahiyyə əməliyyatların sayında da artım müşahidə olunur. 2021-ci il ilə müqayisədə 2022-ci ildə cərrahi əməliyyatların sayı **41%** artmışdır. Qeyd olunmalıdır ki, 2020-ci il ilə müqayisədə 2021-ci ildə bu artım cəmi **10%** təşkil etmişdir.

**İTS-nin tətbiq edildiyi inzibati ərazilər üzrə tibbi statistik məlumatlar**

| № | Göstəricilər | Cəmi (2021) | Cəmi (2022) |
|---|---|---|---|
| 1 | Əhalinin sayı | 10 130 114 | 10 156 400 |
| 2 | Həkimlərin sayı | 16 536 | 17 158 |
| 3 | Orta tibb işçilərinin sayı | 38 469 | 39 284 |
| 4 | Həkimə gəlişlərin sayı, profilaktiki gəlişlər daxil olmaqla | 21 694 189 | 27 666 955 |
| 5 | Stasionar qəbul | 413 284 | 464 115 |
| | Evə yazılan xəstələrin sayı | 398 806 | 447 965 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlərinin sayı | 2 481 972 | 2 262 655 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta sayı | 6,2 | 5,1 |
| 6 | Cərrahi əməliyyatların sayı | 127 539 | 179 199 |
| 7 | Çarpayıların sayı | 20 722 | 20 588 |
| 8 | Çarpayıdan istifadə olunma əmsalı | 35% | 32% |

**Tibb müəssisələri üzrə Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil*

İTS-nin tətbiq edildiyi inzibati ərazilər üzrə

hemodializə dair statistik məlumatlar

| № | Göstəricilər | Cəmi (2021) | Cəmi (2022) |
|---|---|---|---|
| 1 | Dializ aparatlarının sayı | 685 | 729 |
| 2 | Keçirilmiş hemodializlərin sayı | 439 493 | 453 763 |

İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində keçirilən cərrahi əməliyyatlar, 2022-ci il

Hesabat dövrü ərzində Bakı tibbi ərazi bölməsi (bundan sonra – TƏB) üzrə cərrahi əməliyyatların sayı digər TƏB-lər üzrə ümumi göstəricilərin **47%**-ni, Bərdə-Yevlax və Şəki-Zaqatala TƏB-ləri isə müvafiq olaraq **9%**, **8%**-ni təşkil etmişdir. Əsas cərrahi əməliyyatlar qadın cinsiyyət üzvləri üzərində aparılan əməliyyatlar, mamalıq prosedurаları və həzm sistemində aparılan əməliyyatlar təşkil etmişdir. Buna dair məlumat aşağıdakı diaqramda əks olunmuşdur. 2022-ci ildə ölkə üzrə TƏBİB-in tabeliyində olan tibb müəssisələrində bir xəstənin çarpayıda

keçirdiyi orta günlərin sayı **5,1** gün təşkil etmişdir. 2021-ci il (**6,2** gün) ilə müqayisədə bu göstərici **17,7%** yaxşılaşmışdır.




<u>İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində təcili və təxirəsalınmaz tibbi yardım gedişlərinin sayı, 2022-ci il</u>

İTS-nin tətbiqi nəticəsində vətəndaşların tibbi xidmətlərə əlçatanlığının artması təcili və təxirəsalınmaz tibbi yardım çağırışlarının ümumi sayında da öz əksini tapmışdır. Belə ki, 2022-ci ildə İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində **1 540 696** təcili və təxirəsalınmaz tibbi yardım çağırışı olmuşdur. Bakı TƏB üzrə çağırışların sayı digər aidiyyəti TƏB-lər üzrə ümumi göstəricilərin **47%-ni** təşkil etmişdir. Buna dair məlumat aşağıdakı diaqramda əks olunmuşdur:



## Özəl tibb müəssisələrinə verilmiş göndərişlər, 2022-ci il

Sığortaolunanların Xidmətlər Zərfi çərçivəsində tibbi xidmətlərə əlçatanlığını yüksəltmək məqsədilə 2022-ci il ərzində Agentlik daha **91** özəl tibb müəssisəsi ilə müqavilə bağlamışdır. 2021-ci ilin sonu ilə müqayisədə 2022-ci ildə Agentliyin müqavilə bağladığı özəl tibb müəssisələrinin sayı **4,6** dəfə artaraq **20-dən 111-ə** yüksəlmişdir.

2022-ci il ərzində müqaviləli özəl tibb müəssisələrinə **205 475** sayda göndəriş verilmişdir. Göndərişlərin **197 978**-i planlı, **7 497**-si isə təcili tibbi xidmətlərin göstərilməsi üçün verilib. 2021-ci il ilə müqayisədə 2022-ci ildə özəl tibb müəssisələrinə verilən göndərişlərin sayı **5,7** dəfə artmışdır.




Agentliyin özəl tibb müəssisələri üzrə göndərişlərə dair statistik məlumatları

| № | Stasionar cərrahi xidmətlər | Cəmi (2021) | Cəmi (2022) |
|---|---|---|---|
| 1 | Radiologiya | 8 353 | 99 588 |
| 2 | Oftalmologiya | 4 933 | 35 059 |
| 3 | İnvaziv radiologiya | 12 727 | 34 735 |
| 4 | Digər | 3 274 | 20 109 |
| 5 | Urologiya | 2 580 | 6 423 |
| 6 | Neyrocərrahiyyə | 1 375 | 3 994 |
| 7 | Ürək-damar cərrahiyyəsi | 1 952 | 3 103 |
| 8 | Travmatologiya | 454 | 1 875 |
| 9 | Kardiologiya | 226 | 453 |
| 10 | Ginekologiya | 38 | 136 |

## 4. Maliyyə ayırmaları

Ümumilikdə, 2022-ci ildə İTS-nin tətbiqi ilə bağlı xərclərin maliyyələşdirilməsinə 1 302 891,44 min manat məbləğində vəsait sərf edilmişdir ki, bu vəsaitin 1 211 940,39 min manatı (115 084,11 min manatı dərman, sarğı ləvazimatlarının və materiallarının alınması üzrə xərclər olmaqla) İTS-nin tətbiq edildiyi ərazilərdə tibb müəssisələri üzrə xərclərin, 90 951,05 min manatı TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində göstərilməsi mümkün olmayan ixtisaslaşdırılmış tibbi xidmətlərin özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələrində göstərilməsi üzrə sığorta ödənişlərinin payına düşür.

**2022-ci ildə səhiyyə xərclərinin maliyyələşdirilməsinə sərf olunan vəsait min manat**

| Xərc istiqamətləri | 2022-ci il |
|---|---|
| İcbari tibbi sığortanın tətbiq edildiyi ərazilərdə tibb müəssisələri üzrə xərclər | 1,211,940.39 |
| o cümlədən | |
| Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması üzrə xərclər | 115,084.11 |
| TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində göstərilməsi mümkün olmayan ixtisaslaşdırılmış tibbi xidmətlərin özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələrində göstərilməsi üzrə sığorta ödənişləri | 90,951.05 |
| **Cəmi** | **1,302,891.44** |

## 5. İctimaiyyətlə əlaqələr

2022-ci il ərzində əhali arasında İTS sistemi barədə məlumatlılığın artırılması istiqamətində silsilə tədbirlər həyata keçirilib. Belə ki, dövlət, qeyri-dövlət qurumlarının, təhsil müəssisələrinin nümayəndələrini İTS sistemi çərçivəsində tibb müəssisələrinə müraciət prosesi, Xidmətlər Zərfi, göndərişlərin verilməsi qaydası, ailə həkimi və s. barədə məlumatlandırmaq üçün **11 104 nəfərin** iştirakı ilə **148 sayda təlim** keçirilib. Maarifləndirmə tədbirləri keçirilərkən təlimin başlanğıcında və sonunda iştirakçılar arasında İTS haqqında məlumatlılıq səviyyəsinin və təlimin effektivliyinin öyrənilməsi məqsədilə sorğular keçirilib. Təlimlərin əvvəlində "İcbari tibbi sığorta haqqında nə dərəcədə məlumatlısınız?" sorğusunda iştirak edən **473 nəfərin 47,2%-i "Qismən məlumatım var", 26%-i "Məlumatım var", 26,8%-i "Məlumatım yoxdur"** variantını seçmişdir. Təlimlərin sonunda "İcbari tibbi sığorta haqqında məlumatlılıq sorğusu"nda ünvanlanan 6 suala ümumilikdə 355 nəfər cavab vermişdir. Sualları iştirakçıların ortalama **74,5%-i düzgün, 25,5%-i** isə səhv cavablandırmışdır.

Ötən ilin sonu media və vətəndaş cəmiyyəti nümayəndələri, eləcə də TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrində çalışan ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislər üçün **"İcbari tibbi sığorta sahəsində məlumatlılığın artırılması"** mövzusunda 80-ə yaxın şəxsin iştirakı ilə təlim keçirilib. Bununla yanaşı, Agentliyin fəaliyyətini və ümumilikdə İTS mövzusunu işıqlandıran 15-ə yaxın media mənsubuna bu sahəni daha dolğun əks etdirmələri üçün **2 media-tur** (Quba rayonunda yerləşən dövlət tibb müəssisələrinə və Kliniki Tibbi Mərkəzə) təşkil edilib.

- Agentlik tərəfindən aparılan maarifləndirmə kampaniyası çərçivəsində:

- Azərbaycanın müxtəlif mobil operatorlarına aid **4 milyon 860 min nömrəyə İTS sistemindən istifadə qaydası** barədə məlumatlandırıcı SMS göndərilib.
- **16000 qazinin mobil nömrəsinə zəfər bayramı və İTS ilə bağlı SMS** göndərilib;
- ASAN radio ilə əməkdaşlıq çərçivəsində "1 sual, 1 cavab" rubrikasında dinləyicilərə İTS ilə bağlı məlumatlar təqdim olunub;
- Əhalinin sistem barədə məlumatlığını artırmaq məqsədilə dövlət tibb müəssisələrində vətəndaşlara verilən qəbzlərdə **"İcbari tibbi sığortanın Xidmətlər Zərfi ilə bütün xidmətlər ödənişsizdir"** qeydi yazılıb;
- Respublika üzrə bütün 25 "ASAN Xidmət" və "ASAN Kommunal" mərkəzlərinin və 20-dən çox tibb müəssisəsinin monitorlarında İTS sistemi ilə bağlı (Xidmətlər Zərfi, sistemdən istifadə qaydası, özəl tibb müəssisələrində İTS sistemi və s.) maarifləndirmə xarakterli videoçarxlar təqdim olunub;
- Gəncə şəhər İcra Hakimiyyətinin qarşısında yerləşən reklam monitorunda İTS ilə bağlı çarxlar yayımlanır;
- Əhalinin İTS sistemi və xəstəliklərin erkən profilaktikasına dair məlumatlandırılması məqsədilə **16 maarifləndirici çap materialı (7 buklet/kitabça, 9 poster)** hazırlanmış və çap olunmuşdur. Bukletlərin **68 100-ü**, posterlərin isə **9715-i** TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, qeyri-hökumət təşkilatları, "Medinex" beynəlxalq sərgisi vasitəsilə əhaliyə çatdırılıb;
- Agentliyin tanıdılması məqsədi ilə **31 sayda reklam məhsulu** (20 scroller, 10 bilboard, 1 pano) hazırlanıb və Bakı şəhərindəki açıq məkanlarda quraşdırılıb. **18 metro stansiyasında** İTS barədə **40 məlumatlandırma löhvəsi** (bilbordlar) yerləşdirilib.

### 5.1. Media ilə əməkdaşlıq

2022-ci ildə Agentliyin fəaliyyəti ilə bağlı mediada yayımlanmış xəbərlərin sayında 2021-ci il ilə müqayisədə **19,8%** azalma qeydə alınıb. Belə ki, 2021-ci ildə sözügedən göstərici **13 409** təşkil etdiyi halda, 2022-ci ildə **10 752** təşkil etmişdir. Bu da 2021-ci ildə COVID-19-la bağlı epidemioloji vəziyyət barədə mediaya intensiv şəkildə məlumatların çatdırılması ilə bağlı olub. Göstəricilər aşağıdakı diaqramda təqdim olunur:




2022-ci ildə onlayn media və televiziyada işıqlandırılan neqativ xəbərlərin sayında **58,1%,** qərəzli xəbərlərin sayında isə **8%** azalma qeydə alınıb. 2022-ci ildə mediadan daxil olan sorğuların operativ araşdırılması nəticəsində problemlərin müsbət həllini tapması neqativ və qərəzli xəbərlərin sayının azalmasına təsir etmişdir.




İTS mövzusunu mediada işıqlandırmaq məqsədilə hazırlanmış və mediada yayımlanmış məlumatların (press-reliz, xəbər, açıqlama) sayında 2021-ci il ilə müqayisədə **10,6% artım** qeydə alınmışdır. Göstəricilər aşağıdakı diaqramda təqdim olunur:




"Ailə həkimi" tibbi maarifləndirmə informasiya portalı ilə əməkdaşlıq çərçivəsində portalın jurnalında İTS sistemi ilə bağlı **9 müxtəlif mövzuda məqalə** nəşr olunub. Portalın internet səhifəsində isə **41 press-reliz və 2 məqalə** yerləşdirilib.

Agentliyə mediadan daxil olmuş **621** sayda informasiya sorğusu, habelə qurumun sosial şəbəkələrdəki səhifələrinə daxil olmuş **22 027** sayda izləyici sorğusu müvafiq qaydada cavablandırılıb. İTS barədə aparılan maarifləndirmə kampaniyası nəticəsində 2021-ci il ilə müqayisədə mediadan və sosial media izləyicilərindən daxil olan sorğuların sayında 2022-ci ildə müvafiq olaraq 13% və 16,5% azalma müşahidə olunub. Göstəricilər aşağıdakı diaqramlarda təqdim olunur:






## 5.2. Agentliyin saytının və sosial şəbəkələrdəki səhifələrinin əsas fəaliyyət göstəriciləri

2022-ci ildə Agentliyin rəsmi internet səhifəsinin (www.its.gov.az) məzmunu mütəmadi olaraq yenilənib:

- Saytın ana səhifəsində "İcbari tibbi sığorta" adlı ayrıca bölmə yaradılıb.
- "E-xidmətlər" altbölməsinin "Laboratoriya analizlərinin nəticələri" xidmətinin tətbiq edildiyi tibb müəssisələrinin sayı 20-dən 70-dək artırılıb.
- Saytda müvafiq altbölmələr yaradılıb:
  - "Vətəndaşlar üçün" bölməsində "TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrinin siyahısı" və "Agentliyin müqavilə bağladığı tibb müəssisələrinin siyahısı" adlı altbölmələr;
  - "Qanunvericilik" bölməsində "Tibbi xidmətlərin siyahısı və tarifləri" və "Agentliyin normativ sənədləri" adlı altbölmələr;
  - "Media" bölməsində "Mətbuat xidməti" adlı altbölmə.

2021-ci il ilə müqayisədə sayt istifadəçilərinin və sayta daxilolmaların sayında azalma qeydə alınıb. "COVID-19 vaksin randevu" elektron xidmətinin aktiv edilməsi, beynəlxalq səfərlər üçün verilən COVID-19 PZR analizinin nəticəsinin onlayn qaydada əldə edilməsi, peyvənd və immunitet sertifikatlarının əldə edilməsi 2021-ci il ərzində sayta daxilolmaların sayında artıma səbəb olub. Saytın əsas fəaliyyət göstəriciləri aşağıdakı diaqramda təqdim olunur:




Agentliyin sosial media platformaları da aktiv fəaliyyət göstərib. Belə ki, qurumun sosial şəbəkələrdəki səhifələrində 2022-ci il ərzində ümumilikdə **4364 post** paylaşılıb. Həmçinin, Agentliyin "YouTube" kanalında **233 video** yerləşdirilib ki, bunlara Agentlik tərəfindən hazırlanmış **133 videoçarx** da daxildir.

Sosial şəbəkələr üzrə əsas fəaliyyət göstəriciləri aşağıdakı diaqramlarda təqdim olunur:







Agentliyin təşəbbüsü ilə əhalinin İTS mövzusunda məlumatlandırılması məqsədilə “Real TV” ilə əməkdaşlıq nəticəsində **34** sayda “Tibbi sığorta saatı” verilişi yayımlanıb. Verilişlər həmçinin qurumun “Facebook” səhifəsi üzərindən canlı yayımlanıb. Videoyazılar Agentliyin “YouTube” kanalında da yerləşdirilib.

## 6. Vətəndaş müraciətlərinə baxılması

2022-ci ildə Agentlik tərəfindən vətəndaşların müraciətlərinə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə baxılması təmin edilmişdir.

İl ərzində Agentliyə **22 037**-i ərizə, **3 227**-i şikayət və **9**-u təklif xarakterli (ümumilikdə **28 567**) yazılı müraciət daxil olmuşdur. Müraciətlərin **25 273-ü** ərizə, şikayət və təklif xarakterli olmaqla məktub, **101-i** isə teleqram vasitəsilə edilib. **7987** müraciət vətəndaşlar tərəfindən birbaşa olaraq Agentliyə edilib. Müvafiq dövlət qurumlarından baxılması üçün Agentliyə yönləndirilən vətəndaş müraciətlərinin sayı isə **20 580** təşkil edib.

Müraciətlərə dair ətraflı məlumat aşağıdakı cədvəllərdə göstərilmişdir:

| Daxil olan müraciətlərin mövzuları | Say | Faizlə |
|---|---|---|
| Ümumi: | 28567 | |
| o cümlədən, | | |
| Müayinə və müalicə, cərrahiyyə əməliyyatı, dərman təminatı haqqında | 15445 | 54,1% |

| | | |
|---|---|---|
| Etik davranış qaydalarının pozulması ilə əlaqədar | 576 | 2% |
| İş və əmək münasibətləri haqqında | 3262 | 11,4% |
| Əlillik məsələləri haqqında | 7653 | 26,8% |
| İTS-nin tətbiqi, sığorta haqları, sığortalı olmadığına dair arayışın verilməsi haqqında | 370 | 1,3% |
| Digər | 1261 | 4,4% |

| **İcra olunmuş müraciətlər üzrə baxılmanın vəziyyəti** | **Say** | **Faizlə** |
|---|---|---|
| Həll olunmuşdur | 4282 | 19% |
| Qismən təmin edilmişdir | 1760 | 7,7% |
| Rədd edilmişdir (əsassız sayılmışdır) | 2 | 0,01% |
| Müvafiq izahat verilmişdir | 11646 | 51% |
| Dövlət proqramında icrası nəzərdə tutulub | 8 | 0,04% |
| Baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilmişdir | 4833 | 21,2% |
| Baxılmamış saxlanılmışdır | 251 | 1,07% |

Qeyd edək ki, daxil olmuş müraciətlərdən **5 785**-i 31.12.2022-ci il tarixinə icrada olmuşdur.

Agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən qəbul edilən vətəndaşların sayı **9 340** nəfər təşkil etmişdir. Onların **82**-i Agentlikdə, **384** nəfər isə regionlarda olmaqla İdarə Heyətinin sədri, digər vətəndaşlar (**8 874** nəfər) isə müvafiq departamentlərin səlahiyyətli şəxsləri tərəfindən qəbul edilmişdir. Qəbullar zamanı qaldırılan məsələlər əsasən əlillik dərəcəsinin təyini, iş və əmək münasibətləri, müayinə-müalicə, dərman vasitələri, tibbi sərfiyyatla təminat, İTS çərçivəsində ixtisaslaşdırılmış tibb müəssisələrinə göndəriş verilməsi ilə bağlı olub.




* Pandemiya ilə əlaqədar olaraq qəbullar mart ayından başlayaraq keçirilmişdir.

## 7. Beynəlxalq əməkdaşlıq

İTS-nin tətbiqi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi üçün Azərbaycan Respublikasının (AR) müxtəlif ölkələrdə fəaliyyət göstərən diplomatik missiyaları, AR-da akkreditə olunmuş səfirliklər, beynəlxalq qurumlar, yardım təşkilatları, beynəlxalq banklar və özəl təsisatlar ilə fəal əməkdaşlıq Agentliyin beynəlxalq əməkdaşlıq üzrə fəaliyyətinin əsas istiqamətini təşkil edir.

2022-ci il ərzində Agentliyin beynəlxalq əməkdaşlıq çərçivəsində gördüyü işlər:

### 7.1. Anlaşma Memorandumları:

- Danimarkanın Novo Nordisk əczaçılıq şirkəti ilə “Böyümə Hormonunun Çatışmazlığı, Hemofiliya, Piylənmənin idarə olunması və Diabetin idarə olunması” sahələri üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır;
- Rəqəmsal səhiyyə platformasının inkişaf etdirilməsi və yeni texnologiyaların səhiyyə sektorunda tətbiqi istiqamətində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi ilə Anlaşma Memorandumu imzalanmışdır;
- Ankara Universiteti ilə “təhsil xidmətlərinin göstərilməsi və elmi tədqiqat əməkdaşlığı” haqqında Anlaşma Memorandumu imzalanmışdır;
- Koreya Tibbi Sığortaya Baxış və Qiymətləndirmə Xidməti (Health Insurance Review and Assessment Service, HIRA) ilə əməkdaşlığa dair Anlaşma Memorandumu layihəsi hazırlanmış, cari il ərzində imzalanması nəzərdə tutulur;
- Koreyanın Milli Tibbi Sığorta Xidməti (National Health Insurance Service, NHIS) ilə əməkdaşlığa dair Anlaşma Memorandumunun layihəsi hazırlanmış, cari il ərzində imzalanması nəzərdə tutulur;
- Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) Azərbaycan nümayəndəliyi ilə Ağdam və Tərtər rayonlarının tibb müəssisələrində ilkin səhiyyə xidmətlərinin təkmilləşdirilməsi ilə əlaqədar Anlaşma Memorandumu imzalanmışdır;
- Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun Azərbaycan nümayəndiliyi arasında müştərək layihələrin icra edilməsi məqsədilə Anlaşma Memorandumu imzalanmışdır;
- Çex Respublikasının Səhiyyə Nazirliyi ilə əməkdaşlığa dair Anlaşma Memorandumunun layihəsi hazırlanmışdır. Cari il ərzində imzalanması nəzərdə tutulur

### 7.2. Beynəlxalq layihələr və tədbirlər ilə əlaqədar fəaliyyət

1. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən ölkəmizdə təcili yardım xidmətlərinin inkişafı üçün rabitə və səhiyyə informasiya sistemlərinə dair seminar təşkil edilmişdir.
2. Tibb bacısı, mamalıq təcrübə və təhsilində yeni inkişaf, islahat və dəyişiklikləri bölüşmək, 2021-2025-ci illər üzrə tibb bacısı və mamalıq üzrə qlobal strateji istiqamətlərin hər bir sahəsi ilə bağlı ölkəmizdə tibb bacısı və mama peşəsinin mövcud vəziyyətini müzakirə etmək məqsədilə ÜST tərəfindən “Tibb bacısı və mamalıq peşəsi üzrə simpozium” keçirilmişdir.
3. Dünya Bankı tərəfindən tibbi iddiaların idarəedilməsi sisteminin gücləndirilməsi və elektron səhiyyə strategiyası üzrə tövsiyələrin təqdim etməsi üçün brifinq keçirilmişdir.
4. Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Azərbaycanda icbari tibbi sığorta mexanizmlərinin gücləndirilməsi (Mərhələ 2)” tvinninq layihəsinin rəsmi açılış mərasimi keçirilmişdir.
5. Agentliyin təşəbbüsü və “Novo Nordisk” şirkətinin dəstəyi ilə “Sağlam çəkiyə doğru”

mövzusunda tədbir keçirilmişdir.

6. Ankara Universitetinin Sağlamlıq elmləri fakültəsinin mütəxəssisləri tərəfindən ölkəmizdə "Qazilərin Gücləndirilməsi Layihəsi"-nin ikinci mərhələsi ilə bağlı olaraq seminar keçirilmişdir.

7. Dünya Bankı Qrupunun Beynəlxalq Maliyyə Korporasiya tərəfindən səhiyyə sahəsində Dövlət-Özəl Tərəfdaşlığı mövzusunda seminar keçirilmişdir.

8. Avropa İttifaqının maliyyə dəstəyi ilə ÜST-nin həyata keçirdiyi COVID-19 əleyhinə Vaksinasiyaya Dəstək layihəsi çərçivəsində peyvəndlərin saxlanması və daşınması üçün soyuq zəncir sisteminin gücləndirilməsi məqsədilə tibbi avadanlıqların təhvil-təslim mərasimi keçirilmişdir.

9. Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) təşkilati dəstəyi ilə Ankara Universiteti tərəfindən dövlət tibb müəssisələrinin rəhbər şəxsləri üçün xəstəxanaların idarə edilməsi mövzunda Ankarada təlim təşkil edilmişdir.

10. Lənkəran Perinatal Mərkəz və Ailə Sağlamlıq Mərkəzində ana ölümünün azaldılması istiqamətində Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu ilə birgə pilot layihə həyata keçirilmişdir.

11. BMT-nin Uşaq Fondu (bundan sonra - UNİCEF) tərəfindən Abşeron rayonu, Gəncə şəhəri, Şirvan şəhəri və Ağcabədi rayonunda “Hamilə qadınlar və 0-3 yaş arasında olan uşaqlarla bağlı evlərə ziyarət üzrə Universal Mütərəqqi Model” patronaj sistemi layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində 0-3 yaş aralığında uşaqların sağlam inkişafı və xəstəliklərinin profilaktikası, yenidoğulmuşlarda fiziki və əqli qüsurların vaxtında aşkarlanması, sağlamlıq imkanları məhdud uşaqlı ailələrə dəstək göstərilməsi hədəflənmişdir.

12. UNFPA tərəfindən Lənkəran şəhərində “Təhlükəsiz analıq” pilot layihəsi həyata keçirilmişdir. 3 mərhələdən ibarət olan layihənin məqsədi bölgədə ana ölümü sayının azaldılması ilə bağlı problemlərin həlli, reproduktiv sağlamlıq vəziyyətinin yaxşılaşdırılması və qarşısı alına bilinən ana ölümü əmsallarını azaltmaq üçün qadınlar, yeniyetmə qızlar və onların ailələri üçün səmərəli və yüksək təsirli sağlamlıq həllərini təqdim etməkdir.

13. Dünya Bankı tərəfindən təminatçının ödəniş sistemi və E-Səhiyyə üçün zəruri olan qanunvericilik dəyişiklikləri üzrə texniki qiymətləndirmənin və tövsiyələrin təqdim edilməsi üçün brifinq keçirilmişdir.

14. Yeni klinikada Avropa İttifaqının maliyyə dəstəyi ilə ÜST-nin Azərbaycan Nümayəndəliyi tərəfindən həyata keçirilən “Sağlamlıq üçün Həmrəylik Təşəbbüsü” və “COVİD-19 əleyhinə Vaksinasiyaya dəstək” layihələri çərçivəsində tibb işçilərinin davamlı tibbi təhsilinin dəstəklənməsi və infeksiyanın qarşısının alınması üçün tədbir keçirilmişdir.

15. Agentlik ilə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) arasındakı əməkdaşlığın nəticəsi olaraq, işğaldan azad olunmuş ərazilərdə (Ağdam və Zəngilan) quraşdırılacaq modul tipli xəstəxanaların tibbi avadanlıqları ölkəmizə gətirilmişdir.

16. Yaponiya Hökumətinin “İqtisadi və Sosial İnkişaf Proqramı” çərçivəsində tibbi avadanlıqların təchiz edilməsi üzrə Qrant layihəsi çərçivəsində tibbi avadanlıqlar ölkəmizə gətirilmişdir. Hazırda xəstəxanada avadanlıqların quraşdırılması üçün müvafiq təmir işləri davam etdirilir.

### 7.3. İşgüzar səfərlər:

1. Türkiyə Respublikasının Sosial Müdafiə Qurumu (SGK) ilə Agentlik arasında imzalanmış Fəaliyyət Planının 2022-ci il üçün nəzərdə tutulmuş istiqamətlərinin icrasını təmin etmək məqsədilə Agentlik nümayəndələri Türkiyə Respublikasının İzmir şəhərinə səfər etmişdir.
2. ÜST tərəfindən Portuqaliyada təşkil olunmuş fövqəladə hallara cavab elektron məlumat sistemi (COVID-19 və digər fövqəladə hallar üçün) mövzusunda təlimdə Agentliyin əməkdaşları iştirak etmişdir.
3. Gürcüstanda ÜST tərəfindən təşkil olunmuş Risk əlaqəsi və icmaların görüşü adlı konfransda Agentliyin əməkdaşı iştirak etmişdir.
4. Tvinninq Layihəsi çərçivəsində Litva Respublikasının Vilnüs şəhərində yerləşən Səhiyyə Nazirliyi yanında Milli Tibbi Sığorta Fonduna Agentlik əməkdaşlarının səfəri baş tutmuşdur. Səfər çərçivəsində, İTS-nin maliyyələşdirilməsi, informasiya texnologiyalarının tətbiqi və geri ödəmə sistemləri mövzularını əhatə edən təqdimatlar edilmiş, eyni zamanda, Agentliyin aidiyyəti üzrə ehtiyacları barəsində fikir mübadiləsi aparılmışdır.
5. TİKA-nın təşkilati dəstəyi ilə Ankara Universiteti tərəfindən Ankarada xəstəxanaların idarə edilməsi mövzusunda təşkil edilmiş təlimdə Agentliyin əməkdaşları iştirak etmişdir.
6. Qeyri-infeksion xəstəliklər mövzusunda Stokholmda təşkil olunmuş konfransda Agentliyin əməkdaşı iştirak etmişdir.

## 8. İnsan resursları üzrə görülmüş işlər

- Paytaxt və regionlardakı TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrində çalışan tibb və qeyri-tibb işçilərinin, o cümlədən rəhbərliyin İTS sistemi ilə bağlı məlumatlılığının artırılması, habelə proqram təminatından istifadə qaydaları ilə bağlı ümumilikdə **153** təlim keçirilib.
- TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrinin və Agentliyin müqavilə bağladığı özəl tibb müəssisəsinin məsul şəxsləri üçün göndərişlərin verilməsi qaydası, ekspertizanın aparılma qaydası, sığortaolunanlar ilə tibb müəssisələri arasındakı münasibətdə tərəflərin hüquq və vəzifələri, Xidmətlər Zərfindən istifadə zamanı düzgün qeydiyyatın aparılması və s. mövzularda təlim keçirilib.
- Agentlik TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrinin, Səhiyyə Nazirliyinin tabeliyindəki dövlət tibb müəssisələrinin və müvafiq dövlət qurumlarının tabeliyindəki tibb müəssisələrinin rəhbər heyəti, Həkim Məsləhət Komissiyasının (HMK) sədrləri, üzvləri və qeyri-tibb işçiləri üçün HMK-nın işinin təşkili, Tibbi-Sosial Ekspert Komissiyasına verilən göndərişlərin düzgün rəsmiləşdirilməsi mövzusunda onlayn təlim keçirib.
- Agentlik tərəfindən TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrinin və qurumun müqavilə bağladığı özəl tibb müəssisələrinin tibb və qeyri-tibb işçilərinə proqram təminatı vasitəsilə pasiyent qeydiyyatı, laborator analizlərin barkodlaşdırılması, əsas vəsaitlərin uçotu modulunun tətbiq edilməsi və s. mövzularda **149** təlim keçirilib.
- Agentliyin təşəbbüsü ilə TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrinin rəhbər heyəti üçün Ankara Universitetində “Xəstəxanaların idarəedilməsi” mövzusunda təlim keçirilib.
- Ana və uşaqların sağlamlığının qorunması sahəsində çalışan həkim və orta tibb işçilərinin professional bilik və bacarıqlarının davamlı artırılması və təkmilləşdirilməsi məqsədi

ilə ümumilikdə **741** tibb işçisinin təlimlərdə iştirakı təmin edilib. Təlimlər Bakı, Gəncə və Lənkəran şəhərlərində, Bərdə rayonunda, habelə Rusiya Federasiyasının Moskva şəhərində keçirilib. Təlimlərin çoxu Agentlik və TƏBİB-in, UNİCEF-in Azərbaycan nümayəndəliyi ilə birgə əməkdaşlığı çərçivəsində təşkil olunub.

• Reproduktiv sağlamlıq, o cümlədən abortların qadınların reproduktiv sağlamlığına mənfi təsiri barədə maarifləndirmə işinin həyata keçirilməsi məqsədilə Agentlik TƏBİB və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə "Gənclər üçün gender mədəniyyəti mərkəzi" vebsaytının yaradılması istiqamətində müvafiq işlər icra edir.

• Respublika üzrə tibb müəssisələrinin reanimatoloq-anestezioloqları, mama-ginekoloqları və Təcili Tibbi Yardım Şöbəsinin həkimləri üçün “Hamilələrə ağır preeklampsiyalar zamanı ilkin tibbi yardım” mövzusunda təlim proqramı hazırlanmış və tətbiq edilməyə başlanılmışdır.

• Uşaqlar arasında xəstələnmə hallarının azaldılması, xəstəliklərin erkən aşkar edilməsi, onların sağlamlığının möhkəmləndirilməsi məqsədilə dispanserizasiyanın həyata keçirilməsinə dövlət nəzarətinin təmini üçün Şamaxı rayonunun 6 kəndində uşaqlar arasında xəstələnmə hallarının azaldılması və yoluxucu xəstəliklərin qarşısının alınması rutin immunlaşdırma kampaniyası keçirilmiş və **387** nəfər uşağa peyvənd tətbiq edilmişdir.

## 9. Əlillik məsələləri, aparılmış monitorinqlər və regionlarla iş sahəsində görülmüş işlər

### 9.1. Əlillik məsələləri

Vətəndaşın sağlamlıq vəziyyətinin qiymətləndirilməsi və əlillik dərəcəsinin təyin edilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2022-ci il tarixində “Əlilliyin müəyyən olunması meyarları”na dair təsdiq edilmiş yeni 187 nömrəli qərarı rəhbər tutularaq, “Orqanizmin funksiyalarının pozulması faizinə əsaslanan əlilliyin müəyyən edilməsi meyarlarının tətbiqi” mövzusunda Akademik Ə. Əliyev adına Həkimlərin Təkmilləşdirilməsi İnstitutunda, Gəncə şəhər Birləşmiş Xəstəxanasında əyani və onlayn təlimlər təşkil edilmişdir.

Vətəndaşların tibbi sənədləri əsasında Əlillik altsisteminə göndərişlərin verilməsi məqsədilə E-təbibin “Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin reyestri” proqramı hazırlanaraq, istifadəyə verilmişdir.

Şəxsə göndəriş maddi-texniki bazası, kadr potensialı, ixtisaslaşması, əhaliyə xidmətin əlçatanlığı nəzərə alınmaqla, islahatların ardıcıllığının təmin edilməsi, idarəetmənin optimallaşdırılması və şəffaflığın artırılması məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Agentlik tərəfindən birgə hazırlanmış həkim-məsləhət komissiyalarının siyahısının növbəti versiyaları 11.01.2022-ci il tarixli 40161 nömrəli və 29.11.2022-ci il tarixli 26979 nömrəli dərkənarlarla razılaşdırılmışdır.

Əlillik məsələləri üzrə nəzarət şöbəsinin əməkdaşları tərəfindən tibb müəssisələrinin rəhbər heyəti və operatorlarına mütəmadi olaraq Həkim Məsləhət Komissiyalarının işinin təşkili, TQS № 088-in düzgün rəsmiləşdirilməsi ilə bağlı Bakı və Gəncə şəhərlərində təlimlər keçirilmişdir.

“Orqanizmin funksiyalarının pozulması faizinə əsaslanan əlilliyin müəyyən edilməsi meyarlarının tətbiqi” mövzusunun müzakirəsi, irəli sürülən yeni təkliflərin birgə müzakirəsi çərçivəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin, Əmək və Əhalinin Sosial

Müdafiəsi Nazirliyinin, Dövlət Tibbi-Sosial Ekspertiza Reabilitasiya Agentliyinin, Agentliyin İnformasiya Texnologiyaları və İnnovasiyalar İdarəsinin Xəstəxana idarəetmə sistemləri şöbəsinin və digər aidiyyatı qurumların tabeliyində olan tibb müəssisələrinin əməkdaşlarının iştirakı ilə görüşlər keçirilmişdir.

08.12.2022-ci il tarixində Litvanın nümayəndələri Vyacheslav Zaksas və Vilma Uzdaviniene ilə görüş üçün Əlillik məsələləri üzrə nəzarət şöbəsinin fəaliyyəti barədə təqdimat hazırlanmış və görüşdə Əlilliyin təyin edilməsində Agentliyin (aidiyyəti şöbənin) rolu haqqında məlumat verilmişdir. ÜST-nin STARS (Situation Assessment of Rehabilitation Situation) Reabilitasiya qiymətləndirilməsi çərçivəsində 12-15 sentyabr tarixlərində Park İNN Hotelində müxtəlif nazirlik və dövlət qurumlarının rəhbər işçilərinin iştirakı ilə Reabilitasiya və Köməkçi Texnologiyalar xidmətlərinin rəhbərliyi, idarə olunması mövzusunda fokus qrup müzakirələrində iştirak edilmiş və "TƏBİB"-in tabeliyindəki reabilitasiya xidməti göstərən tibb müəssisələrindən 2021-ci ilə dair Xidmətlər Zərfi çərçivəsində **26** adlı "Fizioterapiya xidməti üzrə" xidmətlərin sayı barədə hesabat hazırlanıb ÜST-yə təqdim edilmişdir.

Vətəndaşların tibbi sənədlərinin toplanıb, Həkim Məsləhət Komissiyasında sağlamlıq vəziyyətinin dəyərləndirilməsinin düzgün şəkildə həyata keçirilməsi gündəlik nəzarətdə saxlanılmışdır. Əlillik müavinətinin təyini və bərpası istiqamətində vətəndaşların Agentliyə olan **2 295** əyani müraciətləri araşdırılmış və müvafiq əldə edilən nəticə barədə vətəndaşlar məlumatlandırılmışdır. Həmçinin ESD üzərindən müxtəlif qurumlardan daxil olmuş **5 783** nəfərə dair müraciətlər icra olunmuşdur.

TƏBİB-in tabeliyində olan tibb müəssisələrində fəaliyyət göstərən Həkim Məsləhət Komissiyalarının (HMK) tərkibində edilmiş dəyişikliklərə və komissiyanın üzvlərinə ödənilən aylıq İTS əlavəsinin verilməsinə nəzarət olunması məqsədilə Komissiyaların tərkibinə dair yekun siyahı hazırlanaraq Agentliyin İnformasiya Texnologiyaları və İnnovasiyalar İdarəsinə və Maliyyə departamentinə təqdim edilmişdir.

Respublika üzrə tibb müəssisələrinin elektron imza üçün istifadə etdikləri kompüter sayları və onunla işləyən operatorlara dair məlumatların toplanıb ümumiləşdirilməsi həyata keçirilmişdir.

Əlillik məsələləri ilə bağlı müraciət etmiş vətəndaşların sağlamlıq vəziyyətinin qiymətləndirilməsi istiqamətində tibb müəssisələrinin öhdəlikləri və prosesin mərhələli gedişi barədə məlumat mətni hazırlanıb rəhbərliyə təqdim edilmişdir.

### 9.2. Regionlarla iş

Cari il ərzində mütəmadi olaraq bütün regionlara səfərlər edilmiş, xəstəxana rəhbərləri və baş həkimlərlə İTS sahəsinin inkişafını təmin etmək məqsədilə görüşlər keçirilmişdir.

Agentliyin filialları İTS-nin əhali üçün əlçatan olması məqsədilə yerli icra hakimiyyəti orqanının dəstəyi ilə bölgələrdə maarifləndirici tədbirlər həyata keçirmişdir, həmçinin, bir çox layihələrin həyata keçirilməsində iştirak etmişdir. Belə ki, ÜST-nin dəstəyi ilə "PROACT-Qayğı" layihəsinin həyata keçirilməsində Şamaxı filialı, BMT-nin Əhali Fondunun (UNFPA) dəstəyi ilə "Azərbaycanın Cənub regionlarında təhlükəsiz analıq" layihəsinin həyata keçirilməsində Lənkəran filialı, həmçinin, Füzuli rayonunda yerləşən **2** tibb məntəqəsinin Qırmızı Xaç Cəmiyyətinin dəstəyi ilə əsaslı təmirinə Ağcabədi filialı dəstək göstərmişdir.

## 10. İnformasiya texnologiyaları və qeydiyyat sistemi üzrə görülmüş işlər

İTS-nin tətbiqi çərçivəsində TƏBİB-in tabeliyində olan tibb müəssisələrində qurulmuş elektron Xəstəxana İdarəetmə Sistemi təkmilləşdirilmişdir. Belə ki, radioloji nəticələr üçün elektron şəkil arxivləşdirmə və kommunikasiya sistemlərinin qurulması (PACs), öncədən elektronlaşdırılmış Anbar modulunun təkmilləşdirilməsi həyata keçirilmiş və həmçinin insan resursları üzrə əməliyyatların idarəedilməsi üçün elektron sistem yaradılaraq, **88** tibb müəssisəsində tətbiq edilmişdir.

Qazilər üçün tibbi xidmətlər modulu yaradılaraq onların sağlamlıq vəziyyətinin daima nəzarətdə saxlanılması və TƏBİB-in tabeliyində olan tibb müəssisələrində tibbi xidmətlər göstərilərkən daha operativ və keyfiyyətli yanaşmanın təmin edilməsi həyata keçirilmişdir. Eyni zamanda əlaqəli hesabatlılıq sistemi yaradılmışdır.

Əlillik məsələləri ilə bağlı yeni TQS № 088-in rəsmiləşdirilməsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tibbi-sosial ekspert komissiyalarına (TSEK) göndərişlər sistemi qurularaq TƏBİB-in tabeliyində olan tibb müəssisələrində tətbiq edilmişdir.

Tibb müəssisələri tərəfindən vətəndaşlara təqdim edilən tibbi arayışların elektronlaşdırılması çərçivəsində Sağlamlıq haqqında tibbi arayış (Forma-86) nümunəsi elektronlaşdırılmışdır. Bakı Baş Sağlamlıq Mərkəzinin tabeliyində olan **68** tibb müəssisəsində tətbiq edilmiş və növbəti mərhələdə tətbiq dairəsinin genişləndirilməsi həyata keçiriləcəkdir.

Tibb müəssisələrinə qan tədarükü, qan ehtiyatlarının toplanması və donor siyahılarının elektron şəkildə saxlanması və Milli Hematologiya və Transfuziologiya Mərkəzinin fəaliyyətini tam elektronlaşdırılmasını təmin etmək məqsədilə Qan Bankı modulu yaradılaraq tam istifadəyə verilmişdir. Belə ki, müvafiq modul vasitəsilə donor sorğulaması kağızının elektronlaşdırılaraq modul üzərindən tərtib edilməsi, tibbi və donor arayışlarının elektronlaşdırılması, FİN-ə görə vəsiqə məlumatlarının qaytarılması, laborator əməliyyatların tam olaraq avtomatlaşdırılması və sairə kimi mühüm funksionallıqlar yaradılmışdır.

TƏBİB-in tabeliyində olan tibb müəssisələrində Laboratoriya İdarəetmə Sisteminin təkmilləşdirilməsi və tətbiq dairəsinin genişləndirilməsi üzrə işlər görülmüş və hal-hazırda **81** tibb müəssisəsində laboratoriyalar tam olaraq avtomatlaşdırılmışdır.

Xidmətlər Zərfində mövcud olan bəzi tibbi xidmətlərin dövlət xəstəxanalarında icrasının mümkün olmadığı halında vətəndaşların tibbi xidmətləri almaları üçün özəl və digər dövlət tibb müəssisələrinə elektron göndəriş imkanı yaradan Göndəriş modulu təkmilləşdirilmişdir.

TƏBİB-in tabeliyində olan tibb müəssisələrində vətəndaşlara göstərilən xidmətlər üzrə məlumatların vətəndaşlara elektron qaydada çatdırılması üçün e-Tabib mobil tətbiqi yenilənmiş və tətbiq Android əməliyyat sistemi üzrə **2 514 310** IOS əməliyyat sistemi üzrə isə **596 900** dəfə yüklənmişdir. Mobil tətbiqdə vətəndaşların TƏBİB-in tabeliyində olan tibb müəssisələrində verdikləri laborator analiz nümunələrinin cavabları, tibbi arayışları, COVID sertifikatları, İTS şəhadətnaməsi və əlaqəli digər sənədləri, eyni zamanda müvafiq tibb müəssisələri tərəfindən müəyyən tibbi əsaslarla digər dövlət və özəl tibb müəssisələrinə olan elektron göndərişləri üzrə məlumatlar elektron qaydada yerləşdirilmişdir. Vətəndaşlar e-Tabib mobil tətbiqindən istifadə edərək TƏBİB tabeliyindəki tibb müəssisələrini xəritə üzərində aydın görə bilər, ehtiyac duyduğu tibbi xidmətlərin Xidmətlər Zərfində olub-olmamasını müəyyən etmək üçün axtarış edə və həmçinin milli peyvənd təqvimi ilə tanış ola bilərlər. Qeyd edilən funksionallıqlar paralel

olaraq veb versiya formasında Vətəndaşların şəxsi kabinetində də (kabinet.its.gov.az) yaradılmışdır və şəxsi kabinetdə qeydiyyatdan keçən vətəndaşların sayı **482 103**-dür.

TƏBİB-in rəsmi internet səhifəsi yaradılmış və bununla da TƏBİB və onun fəaliyyət istiqamətləri üzrə məlumatların əlçatanlığı təmin edilmiş, həmçinin vətəndaşların müraciətlərini daha operativ şəkildə çatdırmaları üçün elektron imkan yaradılmışdır.

2022-ci il ərzində TƏBİB-in tabeliyində olan tibb müəssisələrin İT infrastrukturunun təkmilləşdirilməsi üzrə işlər görülmüşdür. Ümumilikdə **108** tibb müəssisəsində daxili kabelləşmə işləri icra edilərək yekunlaşdırılmış, tibb müəssisələrinə **2 000** ədəd şəbəkə, kompüter, printer, s. avadanlıqlar təhvil verilərək İTS çərçivəsində təhvil verilən İT avadanlıqların sayı **12 590**-a çatdırılmışdır. **20** tibb müəssisəsinə optik internet xətti çəkilmiş, **72** tibb müəssisəsində isə optik internet xətlərinin təmin edilməsi işlərinə start verilmiş və **92** tibb müəssisəsi ilə məlumat mərkəzləri arasında təhlükəsiz VPN şəbəkəsi yaradılmışdır.

Tibb müəssisələrində informasiya təhlükəsizliyinin gücləndirilməsi məqsədilə xDR, imtiyazlı istifadəçilərə nəzarət sisteminin (PAM), Threat Campaign funksiyasının, Brute Force Protection-nın, Kibertəhdid kəşfiyyatı sistemlərinin (threat intelligence), ehtiyat nüsxələrin avtomatik yoxlanılması sisteminin qurulması və tətbiqi həyata keçirilmişdir. Həmçinin şifrələrin, istifadəçi kompüterlərinin auditi və Təhlükəsizlik Əməliyyatları Mərkəzi ilə (SOC) ilə inteqrasiyası kimi işlər icra edilmişdir.

Ölkədaxili və beynəlxalq əməkdaşlıq çərçivəsində bütün digər dövlət qurumları ilə elektron məlumat mübadiləsi tam olaraq, “ASAN Bridge” sistemi üzərindən təmin edilmişdir. Avropa İttifaqının Twinning və Dünya Bankının “Options for Improving Digital Data Exchange in Azerbaijan’s Healthcare System” layihələri çərçivəsində İT komponenti üzrə ekspertlərlə görüşlər keçirilmiş, müzakirələr və qarşılıqlı təcrübə mübadiləsi aparılmışdır.

İT sahəsi üzrə könüllü proqramı həyata keçirilmişdir. Üç ay davam edən proqramda test və müsahibə mərhələsini uğurla keçən **24** könüllü iştirak etmişdir. Tələbələr və gənc məzunların bilik və bacarıqlarının artırılması, gələcək fəaliyyətlərinə təkan verilməsi məqsədi ilə keçirilən proqramın yekun tədbirində iştirakçılar sertifikatlarla təltif olunmuşdurlar. Proqramın **12** iştirakçısı Agentliyin İnformasiya Texnologiyaları və İnnovasiyalar İdarəsində işə qəbul edilmişdir.

## 11. Koronavirus pandemiyası ilə mübarizə

### 11.1. Tibbi statistik göstəricilər

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın 2022-ci il 31 dekabr tarixində açıqladığı məlumata əsasən ölkə üzrə koronavirusa yoluxanların ümumi sayı **826 401**, sağalanların ümumi sayı **815 875**, ümumi test sayı isə **7 430 759** təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarına əsasən Agentlik tərəfindən 2022-ci ilin yanvar-dekabr ayları üzrə infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına əlavələrə, həmçinin tədbir çərçivəsində iştirak edən könüllülərə ümumilikdə **29,60** milyon manat məbləğində müddətli əlavələr və mükafatlar ödənilmişdir.

### 11.2. Vaksinasiya işinin təşkili

Tibb müəssisələrində yaradılmış peyvənd məntəqələrində peyvəndləmə prosesinin statistikasının aparılmasında rast gəlinən nöqsanların aradan qaldırılmasına kömək məqsədilə 2021-ci ildə tibbi qərargahda yaradılmış işçi qrup fəaliyyətinə davam etmiş və məntəqələrin qeydiyyat və hesabat işinin təkmilləşdirilməsi aparılmışdır.

İşçi qrupu tərəfindən peyvənd flakonlarının miqdarına dair gündəlik aktlarının sistemə yüklənməsinə, vətəndaşların analiz.its.gov.az sistemində qeydiyyata alınmasına nəzarət edilmişdir. E-sistemdə vətəndaşların qeydiyyatının düzgün aparılmaması nəticəsində flakon və qeydiyyat miqdarları arasında yaranmış fərqləri aradan qaldırmaq məqsədilə məntəqələrə xüsusi vahid formada şablon göndərilərək, problemi olan vətəndaşların siyahıları bu formaya uyğun tələb edilərək, mümkün problemlər aradan qaldırılmışdır.

### 11.3. Texniki dəstək

2022-ci il ərzində Agentliyin "1542" Çağrı mərkəzinə ümumilikdə **216 252** müraciət daxil olub. Çağrı mərkəzinin İTS ilə bağlı xəttinə **42 694**, əlillik məsələləri ilə bağlı xəttinə **12 489**, koronavirusla bağlı xəttinə **6 471**, operator ilə əlaqə xəttinə isə **154 598** müraciət daxil olub.

Qeyd etmək lazımdır ki, 2021-ci ilin noyabr ayında Çağrı mərkəzinin fəaliyyəti müasir tələblərə uyğunlaşdırılıb. Belə ki, bu sahəyə məsul əməkdaşların sayı artırılıb, müraciətlərin qəbulu, avtomatik qeydiyyatı və aidiyyəti üzrə yönləndirilərək operativ cavablandırılması sisteminin təkmilləşdirilməsi üçün yeni proqram təminatı qurulub. Bundan əlavə, ötən ilin sonunda "1542" Çağrı mərkəzinin xətlərində də dəyişikliklər olub - İTS ilə bağlı yeni xətt - göndərişlərin verilməsi xətti (1542-3) istifadəyə verilib. Hal-hazırda Agentliyin Çağrı mərkəzi 5 yönəldici xətt üzrə xidmət göstərir. Çağrı mərkəzinin İTS xətti (1542-1), əlillik məsələləri ilə bağlı xətti (1542-2), göndərişlərin verilməsi ilə bağlı xətti (1542-3), koronavirusla bağlı xətti (1542-4) həftəiçi 5 gün 09:00-dan 18:00-dək, operator ilə əlaqə xətti (1542-0) isə 7/24 fəaliyyət göstərirlər.

### 11.4. İnformasiya texnologiyaları üzrə tədbirlər

COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində qurulan elektron "Tibbi idarəetmə sistemi" qanunvericiliyin dəyişikliklərinə uyğun olaraq yenilənmişdir (https://e-qanun.az/framework/48855). Həmçinin Aİ-nin müvafiq şərtlərinə uyğun yeni COVID-19 sertifikatlarının əldə olunması üçün elektron sistem qurulmuş və Aİ-nin əlaqəli informasiya sistemləri ilə inteqrasiya edilmişdir

### 11.5. Maarifləndirmə üzrə tədbirlər

Agentliyin www.its.gov.az rəsmi internet saytında 3 altbölmədən (Ölkədə ümumi vəziyyət, Sənədlər, Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatı) ibarət "Koronavirus" bölməsi mütəmadi olaraq yenilənib.

Agentliyin rəsmi internet saytının ana səhifəsində "Elektron xidmət" bölməsində COVID-19-la bağlı aşağıdakı 3 elektron xidmət fəaliyyət göstərir:

- "COVID-19 PZR analizi nəticəsinin onlayn qaydada əldə edilməsi" (beynəlxalq səfərlər üçün);

- “COVID-19 əleyhinə vaksinasiya üçün onlayn növbə” (“COVID-19 vaksin randevu”) Elektron xidmətin daxilindəki “Tez-tez verilən suallar” altbölməsi ölkədə səhiyyə qurumları tərəfindən qəbul edilən son qərarlara əsasən yenilənib;
- “Şəxsi kabinetə giriş” (Elektron xidmətinin daxilindəki yeni funksiyaya daxil olmaqla COVID-19 xəstəliyinə qarşı peyvənd olunmuş şəxslər və COVID-19 PZR analizi pozitiv çıxmış şəxslər “Peyvənd sertifikatı”nı və ya “İmmunitet sertifikatı”nı yükləyə bilərlər).

Saytın müvafiq altbölmələrində Nazirlər Kabinetinin 9 qərarı və Nazirlər Kabineti yanında Operativ Qərargahın **364** məlumatı yerləşdirilib.

Agentlik və TƏBİB-in təşəbbüsü nəticəsində koronavirus xəstəliyinə qarşı mübarizə tədbirləri, buster dozanın əhəmiyyəti və tətbiqi ilə bağlı **3** onlayn mediada, **7** televiziyada isə həkim-mütəxəssislərin müsahibə və çıxışları təşkil olunub.

Agentlik, Səhiyyə Nazirliyi, UNİCEF və TƏBİB-in birgə əməkdaşlığı nəticəsində “Peyvənd haqqında məlumatlı olaq” adlı **150 000** buklet dərc olunub. Bukletlər Səhiyyə Nazirliyinin və TƏBİB-in tabeliyindəki tibb müəssisələrinin vaksinasiya məntəqələrinə paylanılıb.

Koronavirusla mübarizə ilə bağlı **18** press-reliz hazırlanıb, **62** sorğu cavablandırılıb.

COVID-19 infeksiyasına qarşı vaksinasiya tədbirləri, COVID-19-a qarşı mübarizə tədbirləri, "İmmunitet sertifikatı", "Vaksin sertifikatı" və "Əks göstəriş sertifikatı"nın əldə olunması və digər mövzularda **13** məlumatlandırıcı post, habelə tibb işçilərinə müddətli əlavələrin verilməsi ilə bağlı **5** post hazırlanıb.

Agentliyin sosial şəbəkələrdəki səhifələrində digər qurumlara istinad edilərək **80** məlumatlandırıcı post paylaşılıb, “YouTube” kanalında isə **5** televiziya xəbəri və çarxlar yerləşdirilib.

### 11.6. Beynəlxalq əməkdaşlıq

a. ÜST-nin “Fövqəladə Hallara Cavab Məlumat İdarəetmə Sistemi (ERIMS)” layihəsi. Layihənin məqsədi baş verə biləcək xüsusi hallarda Fövqəladə Hallara Cavab Məlumat İdarəetmə Sisteminin təkmilləşdirilməsi və COVID-19 üçün mövcud sistemlərə məlumat axını sxeminin tərtib edilməsini planlaşdırmaqdır. Bu xüsusda, Portuqaliyada beynəlxalq konfrans təşkil olunmuşdur. Qeyd edilən konfransda Agentliyin əməkdaşları işirak etmişdir.

b. ÜST-nin “COVID-19 əleyhinə vaksinasiyaya dəstək” layihəsi. Layihənin məqsədi üç il ərzində COVID-19 və ölkə üzrə rutin immunizasiya proqramlarına dəstək olmaqdır. Layihə çərçivəsində “Prioritet qruplar arasında COVID-19 vaksinasiyasının tətbiqi ilə bağlı maneələr və təşviqedici amillərin müəyyən edilməsi ilə bağlı keyfiyyət tədqiqatı” keçirilmişdir. Həmçinin, layihə çərçivəsində tibbi avadanlıqlar ianə olunmuş (temperatur monitorinq cihazları və soyuducular) və texniki yardım edilmişdir.

c. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) tərəfindən ölkəmizdə COVID-19-la bağlı məlumatlılığı artırmaq məqsədilə "Pregnant women and newborns during the COVID 19 pandemic” adlı seminar təşkil olunmuşdur.